Kaspi 2020.- 16-18 may.S.16.

## Aşıq Əhməd – 100

# Aşıq Əhmədin şeirlərinin bədii səciyyəsi



Yaqut Bahadurqızı
*AMEA N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru*

Azərbaycan aşıq sənətinin əsas aparıcı bölmələrindən biri türk bədii düşüncəsinin ümumi tarixi inkişafı kontekstində formalaşıb inkişaf etmiş aşıq poeziyasıdır. Aşıq poeziyası istər öz ideya-məzmun, istərsə də forma poetika özəllikləri baxımından olduqca orijinal sənət hadisəsidir. Bütün digər sənət növləri ilə müqayisədə aşıq şeirində konkret məzmun və forma çərçivəsində orijinal bədii üslubi xüsusiyyətlər yaratmaq məharətilə seçilir. Əslində zəngin inkişaf tarixinə malik aşıq sənətinin ayrı-ayrı korifeyləri - Qurbani, Miskin Abdal, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Bilal və s. mövcud poetik qəliblər çərçivəsində öz orijinal poetik özəllikləri vasitəsilə bir-birindən fərqlənmişdilər.

Azərbaycan aşıq sənətinin XX əsrin ortalarına təsadüf edən mərhələsi də özünə qədərki zəngin ənənəyə əsaslanaraq yeni-yeni orijinallıqların yaranması baxımından diqqətəlayiqdir. Bu mərhələnin ağırlığını öz üzərinə götürən bir çox sənətkarlar vardır ki, onların da adı Azərbaycan aşıq sənətinin ustadları sırasındadır. Belələrindən biri də şirvanlı Aşıq Əhməd olmuşdur. Aşıq Əhməd poeziyasının bədii üslub özəlliklərini dəqiq müəyyənləşdirmək üçün ilk növbədə belə bir suala cavab vermək lazımdır ki, Aşıq Əhməd poeziyasının digərlərindən fərqləndirən ən başlıca keyfiyyət hansıdır?

Aşıq Əhməd poeziyası öz bədii pafosu, ümumi poetik intonasiyası etibarilə poetik forma sadəliyi ilə məzmun mürəkkəbliyinin vəhdətindən ibarətdir. Onun poeziyası dil-üslub baxımından olduqca sadədir və bu sadəlik dərin bir istedad bulağından qidalandığından primitivlik yox, poetik şəffaflıq kimi təsir bağışlayır. Bəli, Aşıq Əhməd poeziyası şəffaf poeziyadır. Bu xüsusiyyət, xüsusən, aşığın fikir yükündən sarvanı olan ustadnamə tipli əsərlərində deyil, gözəllikdən doğan emosionallığından yaranan gözəlləmələrində daha çox hiss olunur.

*Ay qız, düşüb diyar-diyar,*
*Axtarıram müdam səni.*
*Qaşın, gözün canlar alır*
*Unudarmı adam səni?!*

*Qız oğlana olsa əsir,*
*“Mən səni sevirəm” demir,*
*Yoxsa xəbərdar eyləmir,*
*Ahım, ünüm, sədam səni?!*

Nümunə gətirilən bu gəraylıda aşiqin məşuqəyə olan incə hissləri olduqca poetik bir mükəmməlliklə oxucuya çatdırılmışdır. Bu poetik mükəmməlliyin başlıca şərti ifadə olunan arzusuna səmimi insani xüsusiyyətində və sadəliyindədir. Hissin poeziyaya çevrilmə mərhələsində meydana çıxan poetik forma özəllikləri məzmunun diktəsindən gəldiyindən olduqca orijinaldır. Xüsusən, mətndə bədii sualdan şair olduqca məharətlə istifadə etmiş, real insan gözəlliyinə olan həsrətin dərəcəsini fikri təsdiq vasitəsilə çatdıra bilmişdir. Aşığın səmimi hissləri özünü həm də fikri tam aydınlığı ilə, qənaətə gəldiyi poetik pafosla təqdim etməsində göstərir. “Axşam layla çalıb sazla, səhərlər oyadam səni” - deyən aşıq “axşam-səhər” qarşılaşdırması vasitəsilə olduqca mükəmməl bir lövhə yaratmışdır. Yaxud:

*Gül, danış, qurbanın olum,*
*Sənə baxmağa gəlmişəm.*



*Müştaq olub gül üzünə,*
*Yenə baxmağa gəlmişəm.*

*Mən nə deyim bəxt yazana,*
*Yaxşını verir yamana,*
*Gül üzündə şeh dumana,*
*Çənə baxmağa gəlmişəm.*

Misal gətirilən nümunədə də olduqca zəngin bədii təsvir və ifadə vasitələri, sənətkarın fərdi özəlliklərindən, istedadından irəli gələn sənətkarlıq xüsusiyyətləri vardır. Belə ki, sənətkarın təsvir etdiyi gözəlin üzündəki kədər olduqca yüksək bədii sənətkarlıqla təqdim olunmuşdur. Məlumdur ki, üzərinə qəsdən şeh düşmüş çiçək adi halda olduğundan qatqat gözəl təsir bağışlayır. Aşıq böyük sənətkarlıqla gözəlin üzündəki kədər ifadəsini çənə, göz yaşını şehə, gözəlin üzünü isə çiçəyə bənzətmişdir. İlk baxışdan o qədər də sezilməyən bu bəndlərdə olduqca mükəmməl bir poetik ovqat vardır. Təbiətin bir parçası olan çiçəyin gözəlliyi insanın gözəlliyi ilə müqayisə olunur. Bəndin poetik modelini aşağıdakı kimi qurmaq olar.

*Təbiət - İnsan*
*(bənzədilən) - (bənzənən)*
*Gül - Üz*
*Şeh - Göz yaşı*
*Çən - Sifətin kədəri*

Bu poetik modeldən göründüyü kimi, Aşıq Əhmədin bənzətmələr sistemi aşıq poeziyasının çoxəsrlik ənənəsinə uyğun olaraq öz bənzətmə obyektlərini ana təbiətdən, onun dəyişməz gözəlliklərindən götürmüşdür. Sənətkarın poeziyası öz metaforik sistemi etibarilə ilə çoxəsrlik ənənəyə söykəndiyi üçün özü də əbədilik, həmişəyaşarlıq qazanmışdır.